# "BAZAR, QAZAN VƏ DƏSTƏRXAN" KİTABI BİRİNCİ MÜKAFATA LAYİQ GÖRÜLMÜŞDÜR

*Azərbaycan nümayəndə heyəti Parisdə keçirilmiş Beynəlxalq kulinariya kitabları sərgisindən qələbə ilə qayıtmışdır*



Azərbaycan Milli Kulinariya Assosiasiyasının (AMKA) üzvləri Parisdə keçirilmiş Beynəlxalq kulinariya kitabları sərgisində iştirak etmişlər.

AMKA-ın prezidenti Tahir Əmiraslanov AzərTAc-a bildirmişdir ki, tədbirdə Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov çıxış edərək xalqlar arasında əlaqələrin genişlənməsində mədəniyyətlərin rolundan danışmışdır.

Tahir Əmiraslanov bildirmişdir ki, Dünya Kulinariya Təşkilatları Birliyinin (DKTB) prezidenti Qissur Qudmanson tədbir çərçivəsində kulinarlarımızla görüşmüş və sərgidə nümayiş olunan Azərbaycan nəşrləri ilə maraqlanmışdır.

Tədbirdə Azərbaycanın Fransadakı səfirliyinin əməkdaşları, bu ölkədəki Azərbaycan Mədəniyyət Evinin rəhbərliyi, diaspor təşkilatlarımızın əməkdaşları iştirak etmişlər.

Bişirilən plovlar və şirniyyatlar musiqi sədaları altında qonaqlara paylanmışdır.

Sərgidə Kanada, Çin, Malayziya, İngiltərə, Rusiya və digər ölkələrin çap şirkətləri və müəlliflər kulinariya kitablarını nümayiş etdirmişlər.

Tədbiri dünyanın 22 ölkəsinin teleşirkətləri işıqlandırmışdır.

Yüzlərlə kitab içərisində "Dünya mətbəxlərinin nümayişi" nominasiyasında ölkəmizi Stalik Xankişiyevin müəllifi olduğu, Rusiyanın "Astral" nəşriyyatında çapdan çıxmış "Bazar, qazan və dəstərxan" kitabı təmsil etmişdir.

Parisin Luvr muzeyində keçirilmiş təqdimat mərasimində ölkəmiz 6 kulinarla təmsil olunmuşdur.

Rusiya, Kolumbiya, Çin, Kanada, Malayziya, Azərbaycan da daxil olmaqla 6 ölkə finala vəsiqə qazanmışdır. Sərgidə kulinarlarımızın bişirdikləri ləzzətli təamlarla yanaşı, "Humay" qızlar ansamblı da 3 gün ərzində qəlbləri riqqətə gətirən ifaları ilə iştirakçıları heyran qoymuşdur.

Sərgiyə aparılmış Bakı paxlavası, Quba bükməsi, Quba paxlavası, Şəki paxlavası, Quba üçqulağı və şirniyyatları, Gəncə zilviyyəsi, şəkərbura və s. milli paltar geyinmiş, fransız dilində danışan Azərbaycan Dillər Universitetinin 2 tələbəsi tərəfindən iştirakçılara təqdim olunmuşdur. Xüsusi milli mətbəx üzrə yemək hazırlamaq təcrübəsi keçmiş modelyer-dizaynerimiz isə maraqlananlara ingilis dilində yeməklər haqqında məlumat vermişdir.

Sərginin ikinci günündə Stalik Xankişiyev Azərbaycanın şah plovunu və özbək plovunu hazırlamışdır. Diaspor nümayəndəmiz Mehri xanım Quliyeva və modelyer-dizayner Minarə Quliyeva plovların hazırlanmasında kulinarlarımıza kömək göstərmişlər.

Sərgini ziyarət edən dünyanın çox nüfuzlu ailələrindən olan Kuantro ailəsi (3 qardaş, 4 bacı) Azərbaycan mətbəxi ilə yaxından maraqlanmışdır. Kulinariya biznesinin müxtəlif sahələrində böyük uğur qazanmış Kuantro ailəsi kulinarlarımızı bu il oktyabrın 21-dən 25-dək keçiriləcək II Beynəlxalq İslam mətbəxi festivalına dəvət etmişdir.

Sərginin C01 nominasiyasında Azərbaycan kulinarının "Bazar, qazan və dəstərxan" kitabı birinci mükafata layiq görülmüşdür. Mükafatın təqdimat mərasimində bu kitabın bir çox dillərə tərcümə edilib yayılması qərara alınmışdır.

Tədbirin sonuncu günündə dünyanın bir çox çap şirkətləri, aparıcı telekanalları Azərbaycan kitablarının sərgiləndiyi stendə yaxınlaşaraq əlaqələr qurmaq, müqavilələr bağlamaq üçün müraciət etmişlər.